BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2013

UOT 94 (479.24); 94 (470)

# XIX ƏSRİN SONLARI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA DÖVLƏT BANKININ ŞİMALİ AZƏRBAYCANIN KREDİT SİSTEMİNİN İNKİŞAFINDA ROLUNA DAİR

**Ş.Ü.HƏSƏNOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*sahmar5377@mail.ru*

*XIX əsrin sonları–XX əsrin əvvəlləri Rusiya imperiyası iqtisadiyyatında fəaliyyət göstərən müxtəlif tipli banklar arasında Rusiya Dövlət bankının fəaliyyəti özünün çoxşaxəliliyi ilə seçilmiş, hətta yarandığı vaxtdan bir müddət sonra ölkənin təsərrüfat həyatında kommersiya banklarının funksiyalarını yerinə yetirmişdir. Təsadüfi deyil ki, Rusiya maliyyə tarixinin görkəmli tədqiqatçısı İ.F.Gindin öz əsərində Rusiya Dövlət bankını ölkənin iri və əsas kommersiya bankı rolu daşıdığını qeyd edir. Bu barədə məqalədə bir sıra faktlar açıqlanır.*

**Açar sözlər:** dövlət, bank, maliyyə, kredit, neft

Rusiya Dövlət bankı ölkədə nəinki pul-kredit siyasətinin orqanı kimi fəaliyyət göstərmiş, həmçinin çar hakimiyyətinin ölkənin təsərrüfat həyatına geniş dövlət müdaxiləsi baxımından yürüdülən ümumiqtisadi siyasətində də ciddi rol oynamışdır. İnhisarçılıqdan əvvəlki mərhələ də daxil olmaqla Rusiya kapitalizminin mövcud olduğu bütün illər ərzində belə bir müdaxilə onu Yaponiya istisna olmaqla əsas kapitalist ölkələrindən fərqləndirən cəhət idi. Kapitalist kreditinin və maliyyələşməsinin kommersiya başlanğıcından imtina edib təsərrüfatın dövlət tərəfindən maliyyələşməsi dövlət müdaxiləsinin ən kəsərli üsullarından biri idi. Dövlət ssudaları, dövlət sifarişlərinə və podrat işlərinə avansların verilməsi, həmçinin subsidiyaların ayrılmasını da bura əlavə etsək, belə bir dövlət maliyyələşdirilməsi Dövlət bankının nizamnaməyə müvafiq olmayan uzunmüddətli ssudaları və bu kimi digər əməliyyatları idi. Belə bir hal Dövlət bankının adı nizamnamə əməliyyatlarına təsirsiz ötüşə bilməzdi. Belə ki, bankdan ümumiqtisadi siyasətin maraqları üçün istifadə olunması onun fəaliyyətinin bütün istiqamətlərinə öz təsirini göstərmişdir [1, 3].

İ.F.Gindin öz əsərində Dövlət bankının tarixini və fəaliyyətini (1860-1917-ci illər) Rusiyada kapitalizm mərhələsinə təsadüf etməsi ilə əlaqədar olaraq iki uzun mərhələyə - 1860-cı ildən 90-cı illərin sənaye yüksəlişinin baş

verdiyi 1893-cü ilə qədər olan dövr və həmin vaxtdan 1917-ci ilə qədər olan dövrə bölür. Birinci mərhələnin sonu - ikinci mərhələnin əvvəli bankın tarixində 1894-cü ildə yeni nizamnamənin tətbiq olunması, 1896-1897-ci illərdə pul islahatının keçirilməsi ilə Dövlət bankının ölkənin mərkəzi emissiya bankına çevrilməsi ilə xarakterizə olunur. Artıq mərkəzi emisssiya bankına çevrilən maliyyə qurumu malik olduğu vəsaitin xeyli hissəsini ölkənin təsərrüfat həyatının kreditləşməsinə yönəltməkdən yayınır, dövlət işlərinə və digər ehtiyaclar üçün vəsaitlərin sərf olunması dayandırılır. İki mərhələ arasında olan mövcud fərq yalnız pul-kredit siyasətində deyil, həmçinin Bankın vəsaitlərinin mənbələrində, onun Maliyyə Nazirliyi və digər hökumət orqanları ilə maliyyə əlaqələrində özünü göstərir [1, 3-4].

İslahatdan əvvəlki digər bankların əvəzinə 1860-cı ildə Dövlət bankı təşkil olundu ki, bu bank da ölkənin ən iri kommersiya bankı idi. Bu bank, yuxarıda da göstərildiyi kimi, 1896-1897-ci illərdən etibarən pul islahatının keçirilməsindən sonra Rusiyanın mərkəzi emissiya bankına çevrilmişdir [2, 609]. Dövlət bankının təsis olunmasından sonra XIX əsrin 60-cı illərində müxtəlif kommersiya və torpaq bankları təsis olunmağa başladı. 15 ildən də az olan qısa müddət ərzində Rusiya imperiyasında az-çox kapitalist kredit sistemi təşəkkül etmişdi [3, 103].

Rusiya Dövlət bankı ucqarlarda kredit müəssisələrinin yaranmasında da maraqlı idi. Dövlət bankının qarşısında pul və kredit sisteminin nizama salınması kimi böyük vəzifələr dururdu. Bundan başqa, onun vəzifələrinə Avropa Rusiyasında olduğu kimi, ucqarlarda da öz şöbələrini açmaq daxil idi. Təşkil olunan şöbələr Dövlət bankının maliyyə əməliyyatlarına tələb olunan vəsaiti təmin etmək üçün ucqarlardan kapitalı çəkib gətirmək funksiyalarını yerinə yetirirdi [4, 7].

1874-cü il iyunun 1-dən etibarən Bakıda Rusiya Dövlət bankının şöbəsi fəaliyyət göstərməyə başladı ki [5, 253], bu da sənayeçilərin və tacirlərin öz maliyyə əməliyyatlarını həyata keçirmək üçün mühüm vasitə oldu [4, 8]. Rusiya Dövlət bankının Bakı şöbəsinin əsas fəaliyyət dairəsini kredit və əmanət-ssuda yoldaşlıq cəmiyyətlərinin qeydiyyatı və onlara xidmət, veksel əməliyyatlarının aparılması, Şamaxı, Quba və başqa xəzinədarlıqları ilə bank əməliyyatlarının aparılması, poçt-teleqraf idarələri və əmanət kassaları ilə maliyyə məsələlərinin həlli, əmanət-ssuda yoldaşlıq cəmiyyətlərində təftişlərin keçirilməsi və sairə təşkil edirdi [6, 96].

Kredit müəssisələrinin cüzi sayda olduğu ilk vaxtlarda Şimali Azərbaycanda, xüsusilə Bakıda veksellərin uçot etdirilməsinin miqdarı yüz min rubllarla hesablanırdı [7, 41]. 1879-cu ildə Dövlət bankının idarə heyəti tərəfindən ilk dəfə olaraq Bakı şöbəsinə veksel uçotu üçün 300.000 rubl məbləğində pul ayrılması barədə sərəncam verildi [8, 153]. 1880-ci ildə Dövlət bankının şöbəsində uçota alınmış veksellərin ümumi məbləği 438.000 rubla bərabər idi [7, 41].

Həmin məbləğlərin qısa müddət ərzində sərf olunub qurtarması göstərirdi ki, şəhərin ticarət-sənaye dairələrinin kreditə olan tələbatı çox böyük idi.

Bakıda neft sənayesinin sürətli inkişafı Dövlət bankının Bakı şöbəsində veksellərin uçot etdirilməsi üçün ayrılan məbləğin artırılmasını tələb edirdi. Həmin dövrdə Bakı şəhərində yalnız istehsal olunub satışa buraxılan neft məhsullarının illik dövriyyəsi 15,3 milyon rubldan yuxarı idi. Buna müvafiq olaraq şəhərin ticarət-sənaye dairəsinin kreditə olan ehtiyacını ödəmək üçün Dövlət bankının yerli şöbəsində veksel uçotu üçün ayrılan pulun məbləği 1882-ci ildə 500.000, 1884-cü ilin ortalarında 800.000, 1888-ci ilin iyulunda 1.000.000, 1888-ci ilin oktyabrında isə 1,5 milyon rubla bərabər oldu. Artıq 1889-cu ildə Dövlət bankının şöbəsində uçota alınan veksellərin ümumi məbləği 2,3 milyon rubla çatmışdı [8, 153-154].

Lakin 1904-cü ildən etibarən Dövlət bankının şöbəsində veksellərin uçotu tədricən aşağı düşməyə başladı. Bu da həmin dövrdə baş verən ictimai-siyasi hadisələrlə və Bakıda bir sıra xüsusi bankların şöbələrinin açılması ilə əlaqədar idi. Xüsusi bankların şöbələri uçot faizini azaltmaq yolu ilə ticarət-sənaye dairələrini özlərinə daha çox cəlb edə bilirdilər. Məsələn, 1907-ci ilin əvvəlindən 1 avqustuna qədər olan müddətdə Dövlət bankının şöbəsi tərəfindən 1,1 milyon rubl miqdarında veksel uçota alındığı halda, 8 xüsusi bankın şöbələrində veksellərin uçotunun məbləği 22,1 milyon rubla çatmışdı [9, 173].

1905-ci ilə aid olan belə bir məlumat da var ki, Bakı şəhərində fəaliyyət göstərmiş Rusiya özəl banklarının şöbələri xırda və orta firmaların veksellərinin uçotunu çətinləşdirirdi. Lakin həmin banklardan fərqli olaraq Dövlət bankının şöbəsi maliyyə nazirinin sərəncamına müvafiq olaraq neft sənayeçilərinin tədiyə ödənişlərini hər vasitə ilə asanlaşdırırdı. Həmin vaxt Bakı şəhərində fəaliyyət göstərən neft müəssisələrinin veksellərinin ümumi məbləği 40 milyona yaxın rubla bərabər idi [10].

Dövlət bankının Bakı şöbəsinin uçot komitəsi tərəfindən aparılan yoxlama əsasında ticarət-sənaye dairələrinin ayrı-ayrı qruplarının sayı, onların apardıqları ticarətə dair, açılan kreditin məbləği, kredit tədiyə qabiliyyəti və borclarının həcmi dəqiqləşdirilirdi [8, 151]. 1893-cü ildə ticarət-sənaye dairələrinin ayrı-ayrı qrupları tərəfindən Dövlət bankının yerli şöbəsində açılan kreditin məbləği 2.480 min rubla bərabər olduğu halda, yoxlanılmaya cəlb olunanların kredit tədiyə qabiliyyəti 3.851 min rubldan ibarət idi. Kredit açanların əksəriyyəti neft ticarəti ilə məşğul olanlar idilər. Daha sonra arşın malı ticarəti ilə məşğul olanlar gəlirdilər. Tacirlərin banka olan borcu 1.155 min rubl təşkil edirdi ki, bu da açılmış kreditdən təxminən iki dəfədən də az idi. Məlum olur ki, kapitalın geri axıb gəlməsi səlis olduğundan ticarət kreditinin banklara müraciət etməsinə o qədər də ehtiyac yox idi [8, 151-152]. Aşağıdakı cədvəldə 1901-ci ilə olan tarixdə Dövlət bankının şöbəsində açılmış kreditin miqdarına nəzər yetirdikdə bu məsələyə bir daha aydınlıq gəlir [8, 152]:

| Sahibkarlar | Kredit tədiyə qabiliyyətinin məbləği | Açdıqları kreditin məbləği |
|---|---|---|
| H.Z.Tağıyev | 16 milyon rubl | 300 min rubl |
| M.Nağıyev | 16 milyon rubl | 250 min rubl |
| Ş.Əsədullayev | 2,5 milyon rubl | 100 min rubl |
| İ.Hacınski | 2 milyon rubl | 75 min rubl |
| A.Rzayev | 2 milyon rubl | 75 min rubl |
| H.Dadaşov | 2 milyon rubl | 250 min rubl |
| T.Dadiani | 1 miyon rubl | 40 min rubl |
| M.Kələntərov | 1 milyon rubl | 75 min rubl |

XIX əsrin sonları-XX əsrin əvvəllərində Azərbaycanın milli sahibkarları mövcud kredit-bank müəssisələrindən yüksək məbləğdə kredit alırdılar. Ş.Əsədullayev, M.Nağıyev və digər milli sahibkarların bəzilərinin isə öz bankir kontorları var idi. Bakı birja cəmiyyətində azərbaycanlılar yalnız 14 nəfərlə (5 %) təmsil olunurdular. 1904-1913-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə "H.Z.Tağıyev" bankir kontoru da daxil olmuşdu. Dövlət bankının Bakı şöbəsi Tağıyevə iri kreditlər verərkən onun böyük varidata malik olduğunu nəzərə alırdı. 1907-ci ildə Tağıyevin sərvəti 16 milyon rubl məbləğində qiymətləndirilirdi. Bundan başqa, Tağıyev Dövlət bankının uçot komitəsinin üzvü seçilmişdi [11, 47].

Bəhs olunan dövrdə rus sahibkarlarının Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində geniş təmsil olunmaları təbii sərvətlərin zənginliyi və işçi qüvvəsinin ucuzluğu, az vəsait qoyub, çoxlu qazanc əldə etmək imkanlarının olması ilə yanaşı digər amillərlə də bağlı idi. Bu amillər sırasında çarizmin rus sahibkarlarına göstərdiyi maliyyə yardımları və siyasi-hüquqi xarakter daşıyan güzəştləri də var. Yəni hökumət əslində özünün himayə siyasətini müxtəlif qanunvericilik aktları və Dövlət bankı vasitəsilə həyata keçirirdi. Rusiyanın səhmdar bankları da rus sahibkarları üçün sərfəli olan tədbirlər həyata keçirirdilər. Həmin bankların kapital qoyduqları sənaye sahələrində həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları bank kapitalı ilə sənaye kapitalının qovuşmasına gətirib çıxarırdı [12, 3-4].

XX əsrin əvvəllərində Bakının bank müəssisələrinin kredit əməliyyatları əhəmiyyətli dərəcədə genişlənmişdir. Dövlət bankının Bakı şöbəsinin uçot əməliyyatı bilavasitə olaraq ticarət-sənaye dövriyyəsinin inkişaf səviyyəsindən asılı olmuşdur. Neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq sahibkarlıq fəaliyyətinin digər sahələrinin genişlənməsi nəticəsində açılan kreditlərin məbləği, eləcə də veksellərin uçotunun həcmi artmışdı. Böhran illərində ticarət-sənaye dairələrinin kreditə olan tələbatının güclənməsi ilə bağlı olaraq 1902-1903-cü illərdə Bakının ticarət-sənaye dövriyyəsi mütəmadi olaraq aşağı düşdüyü halda, Dövlət bankının şöbəsində açılan kreditlərin ümumi məbləği artmışdır. Həmin müddət ərzində Dövlət bankının şöbəsində veksel üzrə borcun qədəri də çox ciddi səviyyəyə yüksəlmişdir ki, bu barədə də yuxarıda məlumat verilib [9, 171-172].

XX əsrin əvvəllərində Rusiyanın, eləcə də Şimali Azərbaycanın kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı ölkədə kiçik kreditin vəziyyətini əsaslı surətdə dəyişməyi tələb edirdi. Çar hökumətinin 1904-cü il iyunun 7-də təsdiq etdiyi "Kiçik kredit idarələri haqqında əsasnamə"yə müvafiq olaraq 1906-1907-ci illərdə Dövlət bankının Bakı və Tiflis şöbələrinin nəzdində kiçik kredit üzrə Bakı və Yelizavetpol quberniya komitələri yaradıldı [13, 66].

Rusiya Dövlət bankının Qafqaz regionunda Bakı şəhərindən başqa Vladiqafqaz, Yekaterinopol, Novorossiysk, Stavropol, Batumi, Tiflis və İrəvan şəhərlərində də şöbələri fəaliyyət göstərirdi. 1907-ci il yanvarın 1-nə olan məlumatlara görə, Rusiya Dövlət bankının imperiyadakı bütün bank şöbələri üzrə olan balansının miqdarı 1.083.973.029,62 rubla, Qafqaz regionu üzrə 28.493.125,41 rubla, təkcə Bakı şöbəsi üzrə isə 8.511.292,27 rubla bərabər idi. Bakı şöbəsində olan balansın məbləği Qafqaz regionundakı məbləğin 29,87 %-ni, bütün şöbələr üzrə olan məbləğin isə 0,79 %-ni təşkil edirdi [6, 96].

Beləliklə, öz fəaliyyətinə 1860-cı il iyunun 1-dən başlayan Rusiya Dövlət bankı Rusiya kapitalist kredit sisteminin ilk bankı kimi mövcud olmuşdur. Əgər məhdud sayda olan şəhər ictimai banklarını nəzərə almasaq, o zaman ilk kommersiya banklarının yaranmasının tarixi 1863-1864-cü illərə şamil olunur. Onların daha geniş şəkildə təsis olunması dövrü isə 1870-1873-cü illərə aiddir. Buna görə də, yalnız XIX əsrin 70-ci illərinin əvvəllərində ölkənin kommersiya bankları sistemində (səhmdar, qarşılıqlı ictimai kredit və şəhər bankları) Dövlət bankının xüsusi mövqeyi müəyyənləşmiş və özünün mövcud olduğu bütün illər ərzində ölkənin iri və əsas kommersiya bankı rolunu qoruyub saxlamışdır [1, 84].

Nəticə etibarilə göstərmək lazımdır ki, Rusiya Dövlət bankının Şimali Azərbaycan iqtisadiyyatındakı fəaliyyəti kommersiya banklarının şöbələri ilə rəqabətə davan gətirmiş, hətta bir sıra ölçülərinə görə onları geridə də qoymuşdur. Bundan başqa, ölkənin ticarət-sənaye dairələrinin sələmçi kapitalının yüksək faizə verdiyi kreditdən xilas olub, daha aşağı faizlə verilən kreditə üz tutmalarında Rusiya imperiyasının ilk kredit müəssisəsi kimi mövcud olan Rusiya Dövlət bankının böyük rolu olmuşdur. Rusiya Dövlət bankı ölkənin səhmdar kommersiya bankları sırasına daxil olmasa da, artıq XIX əsrin 90-cı illərindən etibarən öz maliyyə əməliyyatlarında kommersiya banklarının funksiyalarını yerinə yetirməyə başlamış və tezliklə ölkənin iri və əsas kommersiya bankına çevrilmişdir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Гиндин И.Ф. Государственный банк и экономическая политика царского правительства (1861-1892 годы). М.: Госфиниздат, 1960, 416 с.
2. Большая Советская Энциклопедия. Том 2. Третье издание. М.: Советская Энциклопедия, 1970, 632 с.
3. Советская Историческая Энциклопедия. Том 2. М.: Государственное Научное Издательство «Советская Энциклопедия», 1962, 1022 с.
4. Касумова А.М. Кредитно-банковские учреждения Азербайджана (1874-1932 г.г.): Дис…. канд. экон. наук. Баку: 1969, 223 с.
5. Azərbaycan tarixi. 7 cilddə. IV c., (XIX əsr). Bakı: Elm, 2000, 508 s.
6. Musayev A.F., Vəliyev N.N., Quliyev A.S. Qiymətli kağızlar bazarı. Bakı: Səda, 1999, 324 s.

7. Умаев А.А., Касумова А.М. Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана // Материалы по экономической истории Азербайджана (к V Международному Конгрессу Экономической истории). Под редакцией академика АН Азербаджанской ССР А.С.Сумбатзаде. Баку: Элм, 1970, с.38-46.
8. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti (1883-1900-cü illər). Bakı: Elm, 1972, 194 s.
9. Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-cü illər). Bakı: Elm, 1975, 195 s.
10. Газета «Баку» 1905, 20-е сентября, №124.
11. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. İşlənmiş, əlavələr olunmuş ikinci nəşri. Bakı: 2004, 348 s.
12. Şahmuradov A.Ş. XIX əsrin II yarısı–XX əsrin əvvəllərində rusların Azərbaycanda sahibkarlıq fəaliyyəti. Tarix elmləri namizədi alimlik dərəcəsi alamq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2000, 191 s.
13. Azərbaycan tarixi. 7 clddə. V c. (1900 – 27 aprel 1920). Bakı: Elm, 2001**,** 672 s.

## ГОСУДАРСТВЕННЫЙ БАНК РОССИИ НА РОЛЬ РАЗВИТИЯ КРЕДИТНОЙ СИСТЕМЫ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX ВЕКА - НАЧАЛЕ XX ВЕКА

**Ш.У.ГАСАНОВ**

### РЕЗЮМЕ

В статье конце XIX века - начале XX века, на севере Государственного банка экономика России о роли бизнеса, промышленности и торговли различных банковских операций осуществляется в сфере бизнеса с ними происходит. Общее содержание статьи, то становится ясно, что увеличение торговли в экономике северного Азербайджана, Бакинский Государственный операциям Банка России отдела продаж крупной роли в начальных титрах, и предпринимателей, чтобы построить свой бизнес и их работа способствовала кредитного банка как источника финансирования.

**Ключевые слова:** правительство, банковское дело, финансы, кредит, масло

## THE STATE BANK OF RUSSIA ON THE ROLE OF THE DEVELOPMENT OF THE CREDIT SYSTEM IN NORTHERN AZERBAIJAN IN LATE XIX - EARLY XX CENTURIES

**Sh.U.HASANOV**

### SUMMARY

Late in XIX – early in XX centuries, the North of the State Bank of Russia's economy is about the role of business, industry and commerce of various banking operations carried out in the sphere of business is dealt with. The total content of the article, it becomes clear that the increase of trade in the economy of northern Azerbaijan, Baku State Bank of Russia operations of the sales department of a major role in the opening credits, and entrepreneurs to build their business and their work contributed to the credit of the bank as a source of finance.

**Key words:** government, banking, finance, credit, oil